**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 299**

**Bakı şəhəri, 10 iyul 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Qaçan sətirlə yayımlanan reklamın təqdimolunma Qaydası"nın təsdiq edilməsi barədə" 2016-cı il 2 mart tarixli 100 nömrəli və "Reklam qurğularına Texniki Tələblər"in təsdiq edilməsi barədə" 2016-cı il 12 dekabr tarixli 499 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1523-VQD nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 mart tarixli 599 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 100 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 773; 2018, № 7 (II kitab), maddə 1629) ilə təsdiq edilmiş "Qaçan sətirlə yayımlanan reklamın

təqdimolunma Qaydası"nın 3.1-ci bəndində "daşıyıcıları" sözü "qurğuları" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2218; 2018, № 7 (II kitab), maddə 1631) ilə təsdiq edilmiş "Reklam qurğularına Texniki Tələblər"in 1.4-cü bəndində "daşıyıcıları" sözü "qurğuları" sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**

Xalq qəzeti.- 2019.- 14 iyul.- S.10.